# X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Şuşaya həsr olunan sərgilərin təqdimatı keçirilib

**X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Azərbaycan Milli Kitabxanasının ekspozisiyasında "Şuşa əl işləri", "Şuşa zərgərlik məmulatları", "Şuşa məişət əşyaları", "Şuşa milli geyimləri" adlı virtual sərgilərin təqdimatı keçirilib.**





AZƏRTAC xəbər verir ki, materiallarda Şuşa şəhəri əhalisinin XIX əsr geyim mədəniyyəti, məişət əşyaları, sənətkarlarının hazırladığı zərgərlik nümunələri, XIX əsr tikmə nümunələri, onların təsnifatı, əyani-vizual görüntüləri və qısa tarixi öz əksini tapıb.

Virtual sərgi ilə tanış olmaq istəyənlər **http://anl.az/el/vsb/Susa_milli_geyimleri/index.htm http://anl.az/el/vsb/Susa_meiset_esyalari/index.htm http://anl.az/el/vsb/Susa_zergerlik_memulatlari/index.htm http://anl.az/el/vsb/Susa_el_isleri/index.htm** linklərindən istifadə edə bilərlər.

Qeyd edək ki, 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2023-cü il noyabrın 21-də Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Azərbaycan. - 2024.- 9 oktyabr (№221).- S.16.